# Sumqayıt hadisələri – erməni separatizminin bəhanəsi

**Artıq arxivə qovuşmuş SSRİ hakimiyyətinin və Ermənistan xüsusi xidmət orqanlarının Sumqayıt şəhərində törətdikləri hadisələrdən 28 il ötür. Məhz 1988-ci il fevralın 27-dən 28-nə keçən gecə Sumqayıt şəhərində baş vermiş iğtişaşlar nəticəsində 32 nəfər həlak olmuşdu. Onlardan 26 nəfərinin erməni, 6 nəfərinin isə azərbaycanlı olduğu məlumdur. Humanistliyi və tolerantlığı ilə həmişə seçilən Azərbaycan xalqını hədəfə almış və bərəkətli torpaqlarına göz dikmiş mənfur qüvvələr asanlıqla alətə çevrilən acgöz erməni millətçilərindən dəyənək kimi istifadə edərək, Sumqayıt təxribatını həyata keçirmişdilər. Məqsəd də aydın idi: Sumqayıtda qan axıtmaqla Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi prosesinə bəhanə tapmaq. Sonralar səsləndirilən etiraflar və faktlar da Sumqayıt hadisələrinin arxasında keçmiş SSRİ və Ermənistan xüsusi xidmət orqanlarının dayandıqlarını çılpaqlığı ilə ortaya çıxartdı.**



Sumqayıt hadisələri, əslində, keçmiş SSRİ və Ermənistan xüsusi xidmət orqanlarının təşkil etdikləri ssenarinin tərkib hissəsi olmuşdu. Bunu təsdiqləyən kifayət qədər fakt var. Hadisələrin bilavasitə şahidlərinin ifadələri təsdiqləyir ki, iğtişaşları təşkil edən "qara plaşlı" adamlar Sumqayıt sakinləri olmamışdılar. Onlar öz aralarında bəzi hallarda erməni dilində danışırmış, Azərbaycan dilini isə təmiz bilirmiş və hadisələr zamanı insanlar arasında ermənilər əleyhinə təbliğat aparırmışlar. Onlar camaata spirtli içkilər, güclü təsiredici həblər, dəmir parçaları və s. paylayırmışlar. Məlum olduğu kimi, bu hadisələr bir qrup azğınlaşmış dəstə tərəfindən törədilmişdi. Həmin dəstəyə isə "Paşa" ləqəbli Robertoviç Qriqoryan rəhbərlik etmişdi. E. Qriqoryanın həmin dəstənin ən fəali olması şahid ifadələri əsasında da sübut olunmuşdu. Özünü "Paşa" adlandıran bu erməni təxribatçısının vəhşi instinktlərə sahib şəxs olduğunu faktlar da təsdiqləyir. Belə ki, Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən özü öldürmüş, 8 erməni qadınını isə zorlamışdı. Bundan başqa, bu quldur erməninin dəstə başçısı kimi törədilmiş bütün cinayətlərdə əlinin olduğunu təsdiq edən ittiham aktları da sübuta yetirir.

Aparılmış hazırkı istintaqla tam müəyyən edilmişdir ki, Sumqayıt şəhərində zərərçəkən, öldürülən ermənilərin əksəriyyəti Dağlıq Qarabağda fəaliyyət göstərən "Krunk" cəmiyyətinə könüllü maddi vəsait köçürməkdən imtina edənlər olmuşlar. Bu barədə E.Qriqoryan ətraflı təlimatlandırılmış və ona Sumqayıtda yaşayan həmin ermənilərin dəqiq siyahısı və ev ünvanları verilmişdi. Ancaq, təəssüf ki, keçmiş SSRİ-nin və Ermənistan xüsusi xidmət orqanları planlarının ifşa olunduğunu və bunun ciddi siyasi nəticələrə gətirib çıxaracağını anlayaraq, ağır cinayətlər törətmiş E.Qriqoryanı layiq olduğu ağır cəzadan xilas edə bilmişdilər. Məhkəmənin azərbaycanlı Əhməd Əhmədov haqqında çıxarılmış ölüm hökmü dərhal icra olunduğu halda, iğtişaşların əsas günahkarı və qatil E.Qriqoryana 12 il iş kəsilmişdi. Ancaq Ermənistan ərazisinə köçürülən bu cinayətkar bir neçə ildən sonra azadlığa buraxılmışdı. Təəssüf ki, 1988-ci ildə Sumqayıtda törədilən hadisələrin istintaqı qərəzli və siyasi sifariş əsasında aparılması nəticəsində həqiqi cinayətkarlar məsuliyyətdən kənarda qaldılar.

Müstəqil Azərbaycan Respublikasının Daxili Təhlükəsizlik Xidmətinin (keçmiş MTN) və Baş Prokurorluğunun apardığı istintaq işinin gedişi göstərir ki, hadisələrin əsl mahiyyəti açılmamış, gizlədilmiş, cinayətin bütün iştirakçıları müəyyən edilməmiş, əsl təşkilatçılar kənarda qalmış, onların məsuliyyətə cəlb edilməsi üçün heç bir tədbir görülməmiş, cinayətin baş vermə səbəbi araşdırılmamışdır. Buna görə də, Sumqayıt hadisələrinin yenidən araşdırılmasına zərurət yaranmışdır. Maraqlıdır ki, araşdırmalar yüzlərlə erməninin hadisələrin baş verəcəyindən əvvəlcədən xəbərləri olduğunu göstərir. Belə ki, həmin ərəfədə ermənilərin banklardakı əmanətlərini əvvəlcədən çıxardıqları məlum olmuşdur.

İş üzrə təqsirləndirilmiş şəxs kimi 6 nəfərin qətlində iştirak etmiş E. Qriqoryanın isə məsuliyyətdən azad edilməsi üçün erməni millətçi təşkilatçılarının və xüsusi xidmət orqanlarının çox çalışdıqları təsdiqlənmişdi. Təsadüfi deyil ki, bu qədər cinayət törətməsinə baxmayaraq, E. Qriqoryan Ermənistana göndərilmiş və sonradan da azadlığa buraxılmışdı.

İstintaq materiallarına əsasən, erməni millətindən olan Markaryan avtobusu bilərəkdən azərbaycanlıların üstünə sürmüş və 4 nəfəri öldürmüşdü. Lakin keçmiş SSRİ-nin hüquq-mühafizə orqanları bu faktın üstünü ört-basdır etmişdilər. Ona görə də, həmin iş də təzələnmiş və istintaq-əməliyyat tədbirləri davam etdirilir. Araşdırmalar göstərir ki, ermənilər Sumqayıt hadisələrindən azərbaycanlılar haqqında "vəhşi" obrazı yaratmaq üçün istifadə etməyə çalışmışlar. Halbuki, azərbaycanlılar tərəfindən Sumqayıt hadisələri zamanı yüzlərlə ermənin həyatı xilas edilmişdi. Həmin ermənilər daha sonra dəfələrlə azərbaycanlılar tərəfindən xilas edildiklərini bildirmişdilər. Statistika da bunu təsdiqləyir. Belə ki, o vaxt Sumqayıt şəhərində 18 minə yaxın erməninin yaşamasına baxmayaraq, 26 ermənin ölməsi azərbaycanlıların ermənilləri qorumalarını bir daha təsdiqləyir. Lakin ermənilər faktları təhrif edərək, ölənlərin sayının çox olduğunu iddia edirlər. Ancaq həmin 26 nəfərin hamısının kimliyi haqqında dəqiq materiallar var və istənilən şəxs iğtişaşlarda həlak olmuş ermənilər haqqında məlumat əldə edə bilər.

Sumqayıt hadisələri ilə bağlı qaldırılan cinayət işinin ittiham aktında qeyd olunur ki, E.Qriqoryan şəhərdə yaşayan erməni millətindən olan vətəndaşlara qarşı cinayətlər törətmək məqsədi ilə saat 16 radələrində şəhər avtovağzalı rayonunda Sülh və Dostluq küçələrinin kəsişdiyi yerə gəlmiş, metal boru parçaları, metal çubuqlar, dəyənək və başqa əşyalarla silahlanmış bir qrup şəxsə qoşulmuşdur. O və iğtişaşların digər iştirakçıları öncə L.Ş.Yeseyana məxsus Albina Yeseyanın idarə etdiyi "Moskviç-2140" markalı avtomobili saxlatdıraraq, I qrup gözdən əlil Levon Yeseyanı, Albina Yeseyanı və onların yetkinlik yaşına çatmamış qızları Narine Yeseyanı maşından çıxararaq döyməyə başlamışlar. Həmin gün saat 18 radələrində Qriqoryan və digər tərəfdaşları 3-cü mikrorayonda Mejlumyanlar ailəsinin yaşadığı evin qapısını sındıraraq mənzilə soxulmuş, oranı talan etmiş, pəncərə şüşələrini sındırmış, mebeli və digər ev əşyalarını qıraraq dağıtmış, bir hissəsini isə həyətə ataraq yandırmışlar. Qriqoryan Roza, Qriqori və Lyudmila Mejlumyanları vəhşicəsinə döymüş, Karina Mejlumyanı zorlamışdır. O, yanındakı digər xuliqanları öz hərəkətləri və sözləri ilə cinayətə cəlb etmişdir. Bu barədə istintaq prqumna ifadəsində K. Mejlumyan "Məhz E.R.Qriqoryan mənim anamı döyür, sındırılmış stulun ayağı ilə onun başına güclü zərbələr vururdu", – deyərək erməni "Paşa"nın cinayətkar əməllərini təsdiqləmişdi.

Keçmiş SSRİ-nin baş prokuroru yanında xüsusilə mühüm işlər üzrə müstəntiq, baş ədliyyə müşaviri Vladimir Semyonoviç Qalkinin imzaladığı 18/55461-88 nömrəli cinayət işinin ittiham aktında əvvəllər müxtəlif cinayətlərinə görə dəfələrlə məhkum olunmuş E.Qriqoryanın kütləvi iğtişaşlarda bilavasitə iştirak etdiyi, şəhərdə yaşayan erməniləri öldürmək və onların şəxsi mülkiyyətini talamaq məqsədilə cinayətlər törətdiyi xüsusi qeyd olunmuşdur. İttiham aktında deyilir ki, E. Qriqoryan Sumqayıtdakı iğtişaşlarda fəal iştirak edən xuliqan qrupların dəfələrlə erməni millətindən olan vətəndaşların mənzillərini talan etməyə çağırmışdır.

Dövlət Təhlükəsizlik Xidmətinin arxivləri də bir çox məsələlərə işıq salır. Məsələn, arxivlərdə saxlanılan "Nalyotçik" adı altında məxfi işdən müəyyən edilmişdir ki, Sumqayıt hadisələri ərəfəsində yerli Dövlət Təhlükəsizlik Komitəsi (DTK) şöbəsinin nəzarətində 47 nəfər ekstremist-millətçi erməni əsilli şəxs var və həmin şəxslərdən biri də hadisələr zamanı zərərçəkən siyahısında olmamışdır. Bu faktlar bir daha təsdiq edir ki, "Krunk" cəmiyyəti ilə əlaqə saxlayan erməni millətçiləri Sumqayıt hadisələrində zərər görməmişlər. Sumqayıtda "Krunk" təşkilatının emissarlardan biri, o vaxt Dağlıq Qarabağdan Sumqayıta hərbi komissar kimi dəyişdirilib göndərilmiş Kalantarov soyadlı erməni polkovnikinin də olduğu təsdiqlənmişdir. Həmin Kalantarov buradakı ermənilərin hamısının siyahısını və ünvanlarını bilirmiş və hadisələr ərəfəsində iş yerini dəyişmək adı ilə aradan çıxmışdı. İstintaq zamanı bu da müəyyən edilmişdir ki, musiqiçilər və qumar oynayanlar əldə edilmiş gəlirlərindən "Krunk" cəmiyyətinə pul keçirirmişlər. Həmin ərəfədə Ermənistanın xüsusi xidmət orqanları əməkdaşlarının Bakı və Sumqayıt şəhərlərinə gələrək buradakı mehmanxanalarda yerləşmələri və ermənilərlə görüşüb gizli söhbətlər aparmaları da istintaqla müəyyən edilmişdir.



Ermənilərin iftirasından asılı olmayaraq, E.Qriqoryanın Sumqayıt şəhərində törədilmiş kütləvi iğtişaşların fəal iştirakçısı olması ibtidai və məhkəmə istintaqı zamanı toplanmış sənədlərlə kifayət qədər sübuta yetirilmiş və onun barəsində qüvvədə olan Azərbaycan SSR Ali Məhkəməsinin 22 dekabr 1989-cu il tarixli hökmü vardır. Həmin cinayət işinin istintaq materiallarına əlavə edilmiş E.Qriqoryanın pasportunda, pasport almasına dair 1 №-li formada, hərbi xidmət sənədlərində onun milliyyətinin erməni yazılması müəyyən edilmişdir. Hazırda E.Qriqoryanın olduğu yerin müəyyən edilməsi məqsədilə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən əməliyyat-axtarış tədbirləri davam etdirilir. Azərbaycan ərazisində, o cümlədən, Bakı və Sumqayıt şəhərləri ərazisində Sumqayıt şəhərindəki iğtişaşların qarşısını almaq üçün yetərli sayda hərbi qüvvələr olsa da, məlum olmayan səbəbdən keçmiş SSRİ rəhbərliyi buraya Rusiyada yerləşən hərbi hissələrin qüvvələrini yeritmiş, lakin onlar da iğtişaşların qarşısını almaq üçün yetərincə tədbirlər görməmişlər. Vaxtında hərbçilərə müraciət edilməsinə baxmayaraq, onlar tərəfindən heç bir hərəkət olmamışdı. Keçmiş SSRİ dönəmində aparılmış istintaq hərəkətlərindən belə nəticəyə gəlinmişdi ki, Sumqayıt hadisələrini ermənilər və xarici dövlətlərin xüsusi xidmət orqanları təşkil etmişdir. Ancaq istintaq qrupunun rəhbərləri cinayətin sifarişçilərinin və təşkilatçılarının müəyyən edilməsi istiqamətində, demək olar ki, istintaq hərəkətləri aparmamış, onların ifşa olunmasında maraqları olmamış və buna görə də əsas cinayətin icraçıları barəsində işlərin tezliklə tamamlanıb məhkəməyə göndərilməsini tələb edilmiş və Azərbaycan millətindən olan müstəntiqlərin əsas istintaq hərəkətlərinin icra olunmasından kənarda saxlamağa çalışmışlar.

Sumqayıt hadisələrinin əsas təşkilatçılarından olan Eduard Qriqoryanın yerinin müəyyən edilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Onun yerinin müəyyən edilməsi üçün sosial şəbəkələrdə araşdırmalar aparılmış və "Odnoklassniki" sosial şəbəkəsində daxili və xarici əlamətləri ilə Eduard Qriqoryana oxşar şəxsin fotoşəkilləri aşkar edilmişdir. Müəyyən edilən fotoşəkillər onun Rusiyanın paytaxtı Moskva yaxınlığındakı rayonda yaşadığını güman etməyə əsas verir. E.Qriqoryanın sosial şəbəkədəki şəkilləri Baş Prokurorluğa göndərilmişdir. Məhkəmə ekspertizası təyin olunmuş və müəyyən edilmişdir ki, həmin şəkildəki şəxs Eduard Qriqoryandır. Bu cəlladın hazırda Sergiyev Posad şəhərində, beşmərtəbəli yaşayış binasındakı mənzillərdən birində məskunlaşdığı bildirilir. Buna görə də, bu gün kimsə "Sumqayıt işi"ni saxtalaşdırmaqda Azərbaycanı ittiham etməsi sağlam məntiqə zidd olardı. Ən azından ona görə ki, "Sumqayıt işi"ni keçmiş SSRİ Prokurorluğu, rus, ukraynalı və digər millətlərin nümayəndələrindən ibarət müstəntiqlər tərəfindən aparılmışdı. İstintaq hərəkətlərində Sumqayıt hadisələrində E.Qriqoryanın fəal rolu öz əksini tapmışdı. Bu isə o deməkdir ki, Sumqayıt hadisələri erməni millətçilərinin məkrli planlarının nəticəsi idi və əsas səbəb də ermənilərdə azərbaycanlılara qarşı nifrət oyatmaqla Dağlıq Qarabağda separatçılığa başlamaq və muxtar vilayəti Ermənistana birləşdirməyə çalışmaqdan ibarət idi.

Sonralar Ermənistanın birinci prezidenti olmuş Levon Ter-Petrosyan öz müsahiblərinin birində demişdi ki, "Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü. Əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı, Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi".

Bu sözlər bir daha təsdiqləyir ki, Sumqayıt hadisəsi ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur.

*Səbuhi MƏMMƏDOV,*
*"Xalq qəzeti"*